## Elektron xidmətlər özünü doğruldur

Vergi ödəyicilərinin istifadə etdikləri elektron xidmətlər ölkəmizin iqtisadi həyatında öz sözünü deməkdədir. Bu yazıda cari ilin birinci yarısında elektron xidmətlərin istifadə səviyyəsini əks etdirən göstəriciləri diqqətinizə təqdim edirik.

*ƏDV depozit hesabı*

2012-ci ilin 6 ayı ərzində ƏDV depozit hesabına 995,7 milyon manat vəsait daxil olmuş, bu hesabın daxilində vergi ödəyiciləri tərəfindən 467 mindən çox köçürmə əməliyyatı aparılmışdır. Bu müddət ərzində depozit hesabdan qalıqlar nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən ƏDV depozit hesabı vasitəsilə büdcəyə ödənilən (Dövlət Gömrük Komitəsinin göstəriciləri də daxil olmaqla) vergi məbləği 1 milyard 173,4 milyon manat təşkil etmişdir.

Kameral vergi yoxlamaları

2012-ci ilin yanvar-iyun ayları ərzində vergi orqanları tərəfindən kameral vergi yoxlamaları ilə 128,9 milyon manat əlavə vəsait hesablanmışdır ki, bu da ümumi hesablamanın (2 milyard 771, 4 milyon manat) 4,7%-ni təşkil edir.

*«Bir pəncərə»*

2012-ci ilin birinci yarısında Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının «bir pəncərə» prinsipi üzrə aparılması davam etmiş və qeydə alınmış sahibkarlıq subyektlərinin ümumi sayı 36.644 təşkil etmişdir: bunlardan 2.271-si kommersiya hüquqi şəxslər, 34.373 isə fərdi sahibkarlardır. Qeydiyyat məlumatları mərkəzləşdirilmiş şəkildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna, Dövlət Statistika Komitəsinə və Dövlət Gömrük Komitəsinə ötürülür. İqtisadi İnkişaf Nazirliyi ilə əməkdaşlıq haqqında razılaşmaya uyğun olaraq, ilin ilk yarısı ərzində vergi ödəyicilərinə «bir pəncərə» vasitəsilə 18.068 nəzarət kitabçası təqdim edilmişdir.

*Fiziki və hüquqi şəxslərin*
*elektron qeydiyyatı*

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanının icrası ilə bağlı biznesin qeydiyyatı prosesi sahəsində son illərdə aparılan radikal dəyişikliklərdən biri olan və ötən ildən tətbiqinə başlanılmış fərdi sahibkarların e-qeydiyyat sistemi öz müsbət nəticələrini verməkdədir. Belə ki, 2012-ci ilin birinci yarısında qeydiyyatdan keçmiş 34.373 fərdi sahibkardan 22.624-nün (65,8%) elekron qaydada təqdim etdiyi ərizəyə əsasən VÖEN verilmişdir.

Cari ildən bir sıra qanunvericilik aktlarına dəyişiklik edilərək yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatına start verilmişdir. İyul ayının 1-dək 75 hüquqi şəxsin qeydiyyatı bu üsulla aparılmışdır.

Vergi orqanlarında qeydiyyata durmadan sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərin və təsərrüfat subyektlərinin (obyektlərinin) uçota alınması üçün vergi orqanları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 360 şəxs Vergi Məcəlləsinin 33-cü maddəsinə əsasən vergi uçotuna alınmışdır.

*Banklarla elektron mübadilə*

Vergi ödəyicilərinə daha əlverişli şərait yaratmaq məqsədilə Vergilər Nazirliyi, Mərkəzi Bank və bank idarələri arasında hesabların açılması və hesablanmış vergilər üzrə borcların, faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara təqdim edilən şəhadətnamə-dublikatların və sərəncamların elektron mübadiləsi aparılmaqdadır.

Banklar və digər kredit təşkilatları ilə vergi orqanları arasında inteqrasiyanın genişləndirilməsi sahəsində 2012-ci ilin birinci yarısında işlər davam etdirilmişdir: «Yunayted Kredit Bank» ASC, «NBC Bank» və «Bank Respublika» ilə vergi orqanları arasında hesabların açılması üçün şəhadətnamə-dublikatların və hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün sərəncamların elektron mübadiləsinə başlanılmış və bununla da respublikamızda fəaliyyət göstərən kommersiya banklarından 34-nün və ya 77%-nin elektron mübadiləyə qoşulması təmin olunmuşdur. Eyni zamanda, «Kapitalbank» və «Azərbaycan Sənaye Bankı» ASC-lərlə elektron sənəd mübadiləsi istiqamətində test işləri aparılır.

*Elektron ödənişlər*

Hesabat dövründə vergi ödəyicilərinə internet üzərindən göstərilən elektron xidmətlərin çeşidi və həcmi daha da genişləndirilmişdir. Vergi ödəyicisinin və onun filial, nümayəndəlik və digər təsərrüfat subyektlərinin (obyektlərinin) fəaliyyətinin bərpası, vergi ödəyicisinin filial, nümayəndəlik və digər təsərrüfat subyektlərinin (obyektlərinin) və POS-terminalların qeydiyyatı əməliyyatlarının internet üzərindən həyata keçirilməsi üçün zəruri proqram servisləri hazırlanaraq istifadəyə verilmişdir.

Vergi və rüsumların internet vasitəsilə ödənilməsi üçün elektron ödəniş sisteminin yaradılması layihəsi üzrə işlər başa catdırılmış və cari ilin aprel ayının 12-dən istifadəyə verilmişdir. Ötən dövr ərzində 20,9 milyon manatdan artıq vəsait dövlət büdcəsinə elektron qaydada ödənilmişdir.

Həmçinin, vergi, rüsum, icarə haqqı və digər ödənişlərin bankdankənar qaydada dövlət qurumlarına birbaşa ödənilməsinin aradan qaldırılması və bütövlükdə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə «POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları» və «Azərbaycan Respublikası ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»nın layihələri hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir.

2012-ci il iyulun 1-dək qeydiyyatda olan POS-terminalların sayı 33.268 təşkil etmişdir. 2012-ci ilin birinci yarısında 23.729 POS-terminal aparatına qeydiyyat nömrəsi verilmişdir ki, bunlardan da 22.604-ü elektron qaydada qeydiyyata alınmışdır. 2012-ci ilin birinci yarısında elektron qaydada qeydiyyata alınmış POS-terminalların xüsusi çəkisi 95,3% təşkil etmişdir.

Arzu İBRAHİMOVA